# AZƏR MUSTAFAZADƏNİ UNUTMADIQ

**Şəki Ensiklopediyasının təqvimində 31 yanvar tarixli məqalə Azər Mustafazadənin anım gününə həsr edilib. Kimdir Azər Mustafazadə?**

Ata-anası əslən Şəkidən olan Mustafazadə Azər Abdulla oğlu 1939-cu ildə Vətənimizin paytaxtı Bakıda dünyaya göz açmışdır.Orta təhsilini də doğma şəhərində almışdır. Ali məktəbi Moskvada M. Qorki adına Ədəbiyyat İnstitutunun tərcüməçilik şöbəsində başa vurmuşdur. Ziyalı bir ailədə böyüyən Azər müəllimin valideynləri əslən dağlar qoynunda yerləşən Şəkidən idilər. Atası Abdulla Mustafazadə Azərbaycanın ilk ali təhsilli kənd təsərrüfatı mütəxəssislərindən olub. Anası Mahnur xanım isə Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsində ali təhsil almışdı.

Hələ 1961-ci ildən Azər - bu istedadlı gənc mətbuatda bədii tərcümələrlə, publisistik və tənqidi məqalələrlə çıxış edirdi.

1969-cu ildə AYB-nin üzvlüyünə də qəbul edilir. Güclü tərcüməçilik qabiliyyətinə malik olan, ana dilini böyük məhəbbətlə sevən bu vətənpərvər insan 1966-1981-ci illər arasında M.Cəfərin "Cəlil Məmmədquluzadə", F.Kərimzadənin "Qarlı aşırım", S.Əhmədovun "Yamacda nişanə", M.İbrahimovun "Mənim həyatımın kitabı" əsərlərini Moskvada işlədiyi illərdə Azərbaycan dilindən rus dilinə tərcümə edərək rus xalqına Azərbaycanımızın görkəmli ədəbi simalarını daha yaxından tanıtmışdır. Moskvada işlədiyi dövrdə tərcümələrini kitab şəklində nəşr etdirib.

Onun bu tərcümələri ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanır, oxucular tərəfindən həvəslə oxunurdu.

Müxtəlif məsul vəzifələrdə çalışan A.Mustafazadə 1964-1969-cu illərdə "Literaturnı Azərbaycan" jurnalında əvvəlcə ədəbi işçi, sonra şöbə müdiri və məsul katib kimi çalışmışdır. 1969-1971-ci illərdə isə "Literaturnaya qazetanın" Azərbaycan CCR üzrə xüsusi müxbiri olub.

1971-1972 -ci illərdə Asiya və Afrika yazıçıları ilə əlaqə üzrə respublika komitəsinin məsul katibi işləmişdir.

Azər Abdulla oğlu təşkilatçılıq, idarəçilik bacarığı ilə də fərqlənirdi. Bu baxımdan o 1972-1983-cü illərdə SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin Azərbaycan ədəbiyyatı üzrə şurası sədrinin müavini kimi uzun illər fəaliyyət göstərmişdir.

1983-1985-ci illərdə Azərbaycan SSR Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi sədrinin müavini olmuşdur. O, yalnız gözəl tərcüməçi, ədəbiyyatşünas yox, həm də ictimai xadim idi. Belə ki, 1982-1987-ci illərdə Azərbaycan KP MK mədəniyyət şöbəsinin müdiri işləmişdir.

1988-1990-cı illərdə Azərbaycan KP MK Şəki şəhər komitəsinin birinci katibi vəzifəsində çalışıb.



Hansı vəzifədə, hansı işdə çalışsa da, ona göstərilən yüksək etimadı daim doğrultmuşdur.1990-cı ildən 2021-ci ilədək "Azərnəşr" in direktoru olan Azər Mustafazadənin xidmətləri daim yüksək qiymətləndirilib. Ona 1982-ci ildə "RSFSR Əməkdar mədəniyyət işçisi" fəxri adı verilib.Daha sonra Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanına layiq görülüb.

Dövlətimizin başçısı İlham Əliyev cənabları da A.Mustafazadəyə qarşı daim diqqətli olmuş, ona qayğı və ehtiram göstərmişdir.Anadan olmasının 70 illiyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür. 75 illik yubileyində isə Prezidentimiz tərəfindən "Şöhrət" ordeni ilə təltif olunmuşdur. 2019-cu ildə isə 80 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının ll dərəcəli "Əmək" ordeni ilə mükafatlandırılmışdır. Xaraktercə özünəməxsus yumoru olan, səmimi, qayğıkeş,təvazökar, son dərəcə sadə bir insan idi. Müdriklərin fikrincə isə "Sadəlik-kamilliyin nəticəsi, mənəvi zənginliyin güzgüsüdür". Bəli, mənəviyyatca zəngin olan bu şəxs insanlara yaxşılıq etməyi özünə borc bilirdi.

Yaxşı ailə başçısı, mehriban ata idi. Gözəl övladlar tərbiyə etmişdi.

2023 - cü ildə əbədiyyətə qovuşan A. Mustafadənin xatirəsi inanıram ki, yüksək tutulacaq, xalqa, dövlətə, ədəbi ictimaiyyətə göstərdiyi əvəzsiz xidmətləri ilə daim qəlblərdə yaşayacaq, hörmətlə anılacaq.

*Möhübbət İBRAHİMOVA,*
*Əməkdar müəllim.*

*01.02-2026*

Kredo 2026.- 6 mart. (№09).- S.13.